DOI: http://www.doi.org/10.36719/2663-4619/66/140-144

**Nəzrin Novruz qızı Məmmədova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
magistrant
mammadovaanazrin@gmail.com

# ƏZİM ƏZİMZADƏNİN MİRZƏ ƏLƏKBƏR SABİR POEZİYASINA MÜNASİBƏTİ

***Açar sözlər:*** *Əzim Əzimzadə, Mirzə Ələkbər Sabir, kitab illüstrasiyaları, "Hophopnamə", Azərbaycan satirik qrafikası*

**Azim Azimzada's attitude towards poetry of Mirza Alakbar Sabir**
**Summary**

The heritage that Mirza Alakbar Sabir left for us has always been a source of inspiration for creative people throughout ages. People who are engaged in fine art have always highly appreciated this work too. It requires too much responsibility to address Mirza Alakbar Sabir's poetry, one of the most famous literary figures in world literature. As if the artists who addressed this patriotic writer's poetry, feel the poet and created unique works with an inspiration that they got from him. It is undeniable that Azim Azimzada played a vital role in publicity of Mirza Alakbar Sabir's poetry. Azim Azimzada's all illustrations are engraved in people's memory. Average spectators can perceive artist's illustrations too. By looking through illustrations, it is possible to guess almost all poems that they are dedicated to. Educating people who are indifferent to education and waking them up from this ignorance was Azim Azimzada's main goal. Artist's illustrations differentiate with its harsh ironic spirit which is the main peculiarity of Sabir's poetry. We can definitely see the strong influence of Sabir's poetry in Azim Azimzada's works. This is the reason why Azim Azimzada is usually called as Sabir of fine art. Literary approach of artists towards Sabir's poetry has still been ongoing so far. Addressing Sabir's poetry by most artists is the sign of love, respect and curiosity to Sabir's works and life.
***Key words:*** *Mirza Alakbar Sabir, book illustrations, Azim Azimzade, "Hophopname", Azerbaijani graphic art, master of caricature*

## Giriş

Mirzə Ələkbər Sabirin bizə miras qoyduğu irs bütün dövrlərdə yaradıcı insanların ilham mənbəyi olmuşdur. Təsviri sənət sahəsində çalışan sənətkarlar tərəfindən də bu irs hər zaman yüksək qiymətləndirilmişdir. Dünya ədəbiyyatının şöhrətli simasına çevrilmiş Mirzə Ələkbər Sabir yaradıcılığına müraciət etmək kifayət qədər məsuliyyətlidir. Vətənsevər mütəfəkkirin yaradıcılığına müraciət edənlər sanki şairin harayını duyur və ondan ilhamlanaraq bənzərsiz əsərlər yaradırlar. 1906-cı ildən etibarən şeirləri "Molla Nəsrəddin" jurnalında çap olunsa da, Sabir yaradıcılığına rəssam münasibəti yalnız şairin ölümündən sonra baş tutmuşdur. Yaradıcılıq nümunələrini bir arada toplayaraq kitab halında görmək dahi mütəfəkkirin arzusu olsa da, bu ona qismət olmadı. Yalnız Abbas Səhhət və Mahmudbəy Mahmudbəyovun birgə səyləri nəticəsində ianə hesabına 1912-ci ildə (bəzi mənbələrdə 1913-cü il) 104 səhifəlik kiçik həcmli və heç bir təsvirin yer almadığı kitab çap olunmuşdur. Kitabın adı Sabirin məşhur "Hophop" təxəllüsünə uyğun olaraq "Hophopnamə" adlandırılmışdır. Abbas Səhhət, Mahmudbəy Mahmudbəyov, Mehdibəy Hacinski və Seyid Hüseynin naşirliyi ilə "Hophopnamə"nin daha təkmilləşdirilmiş nəşri 1914-cü ildə çap olunmuşdur. Bu nəşr rəng şuxluğuna, çap keyfiyyətinə və bədii estetik dəyərinə görə nümunəvi hesab olunur. İkinci nəşrdə Azərbaycanın görkəmli rəssamı olan Əzim Əzimzadənin 24 rəngli illüstrasiyası yer almışdır. Əzim Əzimzadə Mirzə Ələkbər Sabirin "Təhəssür", "Nə xəbər var, məşədi?", "Neylərik Fatma-Tükəzbanları", "Dilbər", "Bir belə...", "Sər-süfrədə dadlı-dadlı şərbət", "Məsləhət", "Uşaqdır uşağım", "A Şirvanlılar", "Nə işim var", "Küpəgirən qarının qızlara nəsihəti", "Qoyma gəldi", "Surəti idbarına bax", "Mətləbə əl çatmayır", "Fəhlə özünü sən də "Qocalar marşı", "Yat qal dala, lay-lay", "Ey dad-bidad Ərdəbil", "Etiqadınca yatar-yatmaz, qucar qılmanları", "Bu boyda", "Oxutmuram əl çəkin", "Barışnalara dair", ""Adə, əkinçi", "Nədamət və şikayət", "Fəhlə özünü sən də bir insanmı sanırsan?", "Surəti idbarına bax!", "Qoyma, gəldi" və "Mətləbə əl çatmayır" şeirlərinə təsvirlər çəkmişdir. Bildirməliyəm ki, Əzim Əzimzadə irsinin görkəmli tədqiqatçılarından biri olan Mürsəl Nəcəfov "Əzim Əzimzadə" kitabında (1973) "Hophopnamə"nin 1914-cü il nəşrində 23 illüstrasiyanın olduğunu qeyd etmişdir. O, "Təhəssür" şeirinə çəkimiş illüstrasyanın adını isə bu kitabında çəkməmişdir. Lakin məşhur sənətşünas P.Hacıyev "Azərbaycan Sovet Qrafikası" (1962) kitabında isə bu nəşrdə 22 təsvirin olduğunu qeyd etmişdir. Ancaq o, illüstrasiyaların adını tam

verməmədiyindən, biz bunun hansı 2 təsvir olduğunu dəqiq bilmirik. Əslində isə, nəşrdəki illüstrasiyaların sayı 24 olmuşdur və görkəmli sənətşünas Ziyadxan Əliyev özünün "Sabir təsviri sənətdə" adlı kitabında bu əsərləri geniş təhlil etmişdir. Əzim Əzimzadə M.Ə.Sabirin "A Şirvanlılar" şeirinə 1914-cü ildə illüstrasiya yaratmışdır. Bu təsvirdə gördüklərini tənqid və ifşa edən, öldürülmək təhlükəsi ilə üzləşən şair və qəzəblənən kütlənin təsviri öz əksini tapmışdır. Dramatikliyi ilə seçilən illüstrasiyada kütlənin nifrəti və hədələri qarşısında soyuqqanlılıq nümayiş etdirən Sabirin obrazı verilmişdir. Rəssamın kompozisiyada istifadə etdiyi təzad onun bütün kitab boyu davam edəcəyinə işarədir. "A Şirvanlılar" şeirinə həsr olunan bu təsvirdə hadisələr Şamaxıda cərəyan edir, simaları kin küdurətlə dolu olan insanların şairin həmyerliləri olması diqqət çəkən məqamlardandır. Bütövlükdə, bu təsviri ədalətsizliyin hakim olduğu dövrün obrazlaşmış forması hesab etmək olar. İllüstrasiyadakı obrazlarda verilmiş psixoloji həll özünü sonra kitaba daxil edilən hər bir təsvirdə göstərir. Bu mənada Əzim Əzimzadənin "Hophopnamə"dən ilham alaraq yaratmış olduğu hər bir obraz şairin poetik misralarının təcəssümüdür. Hər iki nəşrin əvvəllində ("Hophopnamə"nin 1914-cü il və 1922-ci il nəşri də bu təsvirlə başlayır) yerləşdirilən illüstrasiyanı kitabın və şairin yaradıcılığının ana xəttini özündə ifadə etdirən əsər saymaq olar. 1914-cü ildə nəşr edilmiş "Hophopnamə"yə Əzim Əzimzadə tərəfindən çəkilən illüstrasiyalar çoxfiqurlu süjetlərə malik olması ilə fərqlənir. Rəssamın 1914-cü ildə M.Ə.Sabirin "Bu boyda" şeirinə çəkdiyi illüstrasiya da bu fikrə bariz nümunədir. Rəssamın yaratmış olduğu bu təsvir şairin eyni adlı şeirinin poetikliyi ilə səsləşir. İllüstrasiyada məktəb qarşısında addımlayan şagirdlər və onları narazı formada izləyən obraz təsvir edilmişdir. Rəssam burada zamanın yeniləşməsini göstərmiş və kompozisiyanı təzadlar əsasında qurmuşdur. İsti rənglərlə milli geyimdə təsvir olunmuş iri fiqurlu kişi obrazı, arxa planda duran oğlan və qızların müasir geyimindən fərqləndiyindən daha diqqətçəkəndir. Əzim Əzimzadə təsvirin ifadə vasitələrindən istifadə etməklə əsəri lakonikliyə və cəlbediciliyə doğru irəlilətmişdi. Şairin "Qoyma gəldi" şeirinə bədii görüntü verən rəssamın 1914-cü ilə aid olan bu illüstrasiyası öz dramatikliyi ilə seçilir. İnteryerdə təsvir edilən süjetdə dramatizm daha qabarıq formada öz əksini tapmışdır. Hədiyyə boxçası ilə ilk görüşə gələn qocanın özündən razılığı, gənc qızın fəryadı, ananın soyuqqanlı duruşu bu dramatizmi dərinləşdirir. Rəssam qırmızı - narıncı rəng çalarlarından istifadə etməklə, gərgin ab – havanı qabarıqlaşdırmağa nail olmuşdur. Təsvirə baxdıqda rəssamın obrazları siluetlərlə ifadə etməsinə məhz rənglərin köməyi ilə nail olduğuna şahid oluruq. Maraqlı məqamlardan biri də odur ki, Əzim Əzimzadə əsərə Azərbaycan etnoqrafiyası nümunələrini əks etdirən detallar da daxil etmişdir. Bu təsvir həm də ailələrdə qız uşaqlarına qarşı neqativ münasibətin güzgüsüdür. M.Ə.Sabir özünün çox məşhur şeiri olan "Oxutmuram əl çəkin" adlı şeirində cəhaləti pisləyərək, cahil atanın oğlunu oxutmaq istəmədiyini poetik formada ifadə etmişdir. Əzim Əzimzadə 1914-cü ildə Sabirin "Oxutmuram əl çəkin" adlı şeirinə çəkdiyi 5 fiqurlu kompozisiyada obrazları ardıcıllıqla, aydın görünüşdə, həmin an keçirdikləri hisləri qabartmaqla göstərməyə nail olmuşdur. Məktəbi təmsil edən 3 şəxsin atanı razı salmaq istəyi, oxumağı insan üçün xeyirli hesab etməyən atanın özünü haqlı göstərərək, qarşısındakıları inandırmağa çalışması, oğlan uşağının göz yaşı tökməsi olduqca dramatik və düşündürücüdür. Əzim Əzimzadənin M.Ə.Sabirin "Millət necə tarac olur olsun, nə işim var?!" şeirinə 1914-cü ildə yaratdığı illüstrasiya öz təsir edici və bədii görüntüsü ilə olduqca fərqlənir. Rəssam bu illüstrasiyada kompozisiyanı təzadlar üzərində qurmuş və insanlara qarşı laqeydlik, biganəlilik sərgiləyən, yalnız özünü düşünən insanların obrazını yaratmışdır. Burada kompozisiya təzadlar üzərində qurulmuşdur ki, buna da rəssam rənglərin vasitəsilə nail olmuşdur. Təsvirin sol hissəsində yoxsul insanlar, sağ hissəsində isə qəlyan çəkən bəy, din xadimi və tacirin obrazları verilmişdir. Burada maraqlı məqamlardan biri də ondan ibarətdir ki, kasıb təbəqənin nümayəndələri onların acı həyatlarının simvolu kimi solğun rənglərlə, varlı təbəqənin nümayəndələri isə parlaq rənglərlə təsvir edilmişdir. Rəssam burada göstərməyə çalışır ki, bir – birinə yaxın, ancaq təzadlı yaşantıların mövcudluğu cəmiyyətin necəliyindən xəbər verir. M.Ə.Sabir özünün çox məşhur "Küpəgirən qarının qızlara nəsihəti" adlı şeirində oxucuları qarının nəsihətləri ilə tanış edir. Əslində isə qarının sözlərində əməl olunası məsləhət yoxdur. Rəssam 1914-cü ildə şairin bu şeirinə çəkmiş olduğu illüstrasiyasında otaqda hər şeyi bildiyini düşünən qarı və saf gənc qızın təsvirini vermişdir. Bu məqamda qeyd etməliyəm ki, 1922-ci ildə nəşr edilmiş "Hophopnamə"də Əzim Əzimzadə bu təsvirdə arxa planda kiçik dəyişiklik etmişdir. Təsvirin sol hissəsində gənc qızın qarıdan aldığı məsləhətləri xəyalında canlandırması öz əksini tapmışdır. Gənc qızın xəyalında ərinin yatandan sonra cibinə girməsi təsvir edilib. Rəssam obrazları elə təsvir edib ki, onların xarakterini cizgiləri ilə duymaq mümkündür. Mövzu ilə rəng həllinin üst – üstə düşməsi əsərdəki realist yanaşmanı göstərir. M.Ə.Sabirin "Qocalar marşı" şeiri real həyatdan götürülmüş poetik nümunədir. Şair yaşadığı dövrdə şahidlik etdiyi hadisələrə yaradıcı yanaşmış və hər zaman millətini haqq yoluna çəkməyə çalışmışdır. Əzim Əzimzadə isə 1914-cü ildə şairin bu şeirində ironiyadan istifadə etməklə uğurlu kompozisiya həllinə nail olmuşdur. Kompozisiyanın mərkəzində iri planda gözü küçədə, sağındakı barışnalarda qalan, solunda yanından keçən məktəb uşaqlarının təəccüblü baxışları ilə müşahidə olunan ağsaqqal təsvir edilmişdir. Kompozisiya

çoxfiqurludur. Rəssam bir neçə rəngin çalarlarından istifadə edərək yüksək keyfiyyətli təsvir yaratmışdır. Əzim Əzimzadə süjeti ironik bir görüntüyə çevirməklə, çox uğurlu kompozisiya yaratmışdır. M.Ə.Sabir 1906-cı ildə qələmə aldığı "Tərpənmə, amandır, bala, qəflətdən ayılma" şeirində həmin dövrdə baş verənləri poetik formada ifadə etmişdir. Şeirin bəndlərində "öyüdlər" geniş yer almışdır. Əzim Əzimzadənin 1914-cü ildə bu şeirə poetik yanaşması, təsvir vasitələrindən istifadə etməsi oxucunun gözləri qarşısında şeirin məzmununun canlanmasına imkan verir. Şeirdəki kinayəli yanaşmaya rəssam da yaratmış olduğu təsvirində yer vermişdir. Bu kinayəyə rəssam satirik yanaşaraq şeirdəki obrazların yaşadıqları dövrə işıq tutmuşdur. Əzim Əzimzadə bütün illüstrasiyalarında olduğu kimi bu təsvirində də kompozisiyada təzadlarla çıxış etmişdir. Kompozisiyanın sağ hissəsində səmada təyyarələrin uçması, dənizdə gəmilərin üzməsini, solda isə "körpə"yə laylay söyləyən din xadimini təsvir etmişdir. Bu körpənin təsvirinə diqqətlə baxsaq, görürük ki, o, əslində yaşlı bir insandır. Rəssam bununla oxucuya çatdırmaq istəyir ki, laylay deməklə din xadimi insanlarda arxayınlıq yaradaraq, kompozisiyanın sağındakı inkişafdan geri qalmağa əsas yaradır. Rəssam bu təsvirində istifadə etdiyi bədii ifadə vasitələrinin köməyi ilə real görüntü əldə etmişdir. M.Ə.Sabir yaradıcılığının əsas qayəsini cəmiyyətin fiziki yükünü öz çiyinlərində daşıyan əkinçi və fəhlələrə həsr etdiyi şeirlər təşkil edir. Elə Əzim Əzimzadə də bu satirik şeirlərə mükəmməl bədii forma vermişdir. Həmin şeirlərdən biri də "Fəhlə, özünü sən də bir insanmı sanırsan?" (Dövlətliyik, əlbəttə, şərafət də bizimdir) şeiridir. Rəssam bu şeirə 1914-cü ildə illüstrasiya yaratmışdır. Təsvirə baxdıqda biz haqsızlığa etiraz edən fəhlələrlə istismarçı arasındakı təzadıda duya bilirik. Təsadüfi deyil ki, əsərin kaloriti də buna uyğunlaşdırılmışdır. Bu təsvirdə Əzim Əzimzadə haqsızlığa qarşı çıxaraq istismarçılara qarşı nifrət hissi yaratmağa nail olmuşdur. Əzim Əzimzadə M.Ə.Sabirin bu şeirinə sonradan da müraciət etmiş və çox maraqlı illüstrasiya yaratmışdır. Təsvirdə sol tərəfdə arzularını çatdırmağa gələn 3 fəhlə, sağ tərəfdə isə barışna ilə əylənərək, əlində qədəh tutan lovğa sahibkarın obrazı verilmişdir. Bu illüstrasiyada Əzim Əzimzadə haqsızlığa qarşı çıxaraq istismarçılara nifrət hissi yaratmağa nail olmuşdur. Eyni zamanda biz bu əsərdə haqsızlığa etiraz edən insanlarla istismarçılar arasındakı təzadı da duya bilirik. Təsadüfi deyil ki, əsərin kaloriti də buna uyğunlaşdırılmışdır. Lakin bu illüstrasiyanın "Hophopnamə" nin 1914-cü il nüsxəsinə aid olan variantı bir qədər fərqlidir. Biz bu fərqi obrazların zahiri görkəmində görə bilərik. Təsvirdə biz acınacaqlı fəhlə obrazlarını görmürük. Hesab edirəm ki, burada rəssam lovğa sahibkarla görüşdən əliboş dönən fəhlələrin məkanı tərk etməsindən sonra baş verənləri təsvir etmişdir. Ancaq rəssam bu təsviri 1922-ci il nüsxəsinə daxil etməmişdir.

M.Ə.Sabirin adını çəkdiyimiz şeirlərinə rəssamın çəkdiyi bütün illüstrasiyalar "Hophopnamə"nin 1914-cü ildə nəşr olunmuş nüsxəsinə aiddir. Sonrakı nəşrə rəssam həm bu təsvirləri, həm də digər şeirlərə həsr olunan yeni yaradılmış illüstrasiyaları daxil etmişdir. Sonrakı illərdə "Hophopnamə" illüstrasiyalarla zənginləşmiş və yenidən çap olunmuşdur. 1921-ci ildə Mirzə Ələkbər Sabirin vəfatının 10 illiyi münasibətilə "Hophopnamə"nin yeni nəşri çap olundu və burada rəngli litoqrafiya nümunələri yer almışdır. Sözlə təsvirin sintezindən yaranmış "Hophopnamə"nin bu nəşri rəssamın yaradıcılığının şah əsərlərindəndir. Azərbaycanda Sovet hakimiyyətinin bərqərar olmasından sonra yeni sosialist məkan üçün bu kitabın nəşri mühüm əhəmiyyət kəsb etdişdir. Öncəki nəşrlərlə müqayisə etsək deyə bilərik ki, bu nəşrdə M.Ə.Sabir yaradıcılığının dolğun ifadəsi baxımından illüstrasiyaların sayı xeyli artılmışdır. Sənətşünas P.Hacıyev yeni nəşrdəki təsvirlərin sayının 33 olduğunu qeyd etmişdir. Mürsəl Nəcəfov isə çap olunan yeni nəşrdə 34 illüstrasiyanın olduğunu bildirmişdir. Mürsəl Nəcəfovun qeyd etdiyi 34 təsvir aşağıdakılardır: "Möhtac məsarif", "Oxutmuram əl çəkin", "Füzuliyə nəzirə", "Ey vaizi süxənvər", "Mırtılda dəmadəm", "Üsul – cədid", "Təhəssür", "Ata və oğul", "Həmid və Məmdəli", "Ər zülmü yamandır", "İran özümündür", "Satıram ay alan", "Ölü a!", "Balaca səhnə", "Bakı qoçularına", "Zahidlərə", "Ay can, ay can", "Millət Şərqisi", "Partapart", "Gəl, gəl mənəm", "Vermə pulu əldən", "Yat kişi", "Qaç at basdı", "Bir dəstə gül", "Ay başı bəlalı", "A...x...", "Ay başı bəlalı fəhlə", "Nədən bəs", "Dəbistan da qapandı", "Dilənçi", "Ey pul", "Qurban bayramı", "Bura say", "Baxtımız oğlan imiş". "Hophopnamə"nin (1922-ci il) Əlyazmalar İnstitutunda saxlanılan nüsxəsində təsvirlərin sayı 55, Milli Kitabxanada saxlanılan nüsxəsində isə 54-dür. Əzim Əzimzadə 1922-ci ildə nəşr olunan "Hophopnamə" nüsxəsində rəng əlvanlığından imtina etmişdir. Burada siluetlərin ifadəliliyi obrazların kəskin və sərt cizgilərlə verilməsi üstünlük təşkil edirdi. M.Ə.Sabirin "Ol gün ki, sənə xaliq edər lütf bir övlad" şeiri də onun maraqlı şeirlərindən biridir. Bu şeirin ana xəttini din tərəfindən düzgün hesab edilməyən falçılığın tərənnümü təşkil edir. Əzim Əzimzadə bu şeirə 1922-ci ildə illüstrasiya yaratmışdır. Rəssam illüstrasiyada üfüqi kompozisiyadan istifadə edərək, obrazları işıqlı fonda, sıralanmış şəkildə və müxtəlif əhval ruhiyyədə təsvir etmişdir. İllüstrasiyada fırıldaqçı falçının qabın içərisinə dualar oxuyaraq ailənin körpə uşağına nəsihətlər verməsi öz əksini tapmışdır. Falçını çox diqqətlə dinləyən, onun dediklərinə inanan qohumların, valideynlərin obrazları da illüstrasiyada verilmişdir. M.Ə.Sabirin "Ax!..." ("Ax!.. necə kef çəkməli əyyam idi") şeiri onun maraqlı şeirlərindən biridir. Əzim

Əzimzadə 1922-ci ildə şeirin mahiyyətinə uyğun olaraq illüstrasiya yaratmışdır. Bu təsvirdə yoxsul təbəqə nümayəndələrinin din xadimi qarşısında əyilməsi, onun əlindən öpməsi səhnəsi verilmişdir. Rəssam M.Ə.Sabirin bu şeirinə uyğun kolorit seçərək ifadəliliyə nail olmuşdur. M.Ə.Sabiri uşaqlara qarşı avam münasibət çox narahat edirdi. Bu səbəbdən də şair bu mövzuya müxtəlif dövrlərdə toxunaraq maraqlı şeirlər yaratmışdır. Belə şeirlərindən biri də "Vah!...Bu imiş dərsi-üsuli cədid?!" adlanır. Bu şeirə Əzim Əzimzadə 1922-ci ildə olduqca maraqlı illlüstrasiya yaratmışdır. Bu təsvirin ana xəttini sinif otağında, müəlliminin və sinif yoldaşlarının gözü qarşısında atası tərəfindən danlanan uşaq təşkil edir. Rəssam savadsız və cahil atanın oğlunu qolundan tutaraq danlamasını, onu təhsildən yayındırmasını fırçası ilə məharətlə təsvir etmişdir. Daima millətini, xalqını düşünən Sabir onları qəflət yuxusundan oyatmaq üçün 1910-cu ildə "Millət şərqisi" şeirini yazmışdır. Əzim Əzimzadə də şeirin mahiyyətinə uyğun olaraq vəsf olunanları yuxuya getmiş şəkildə təsvir etmişdir. 1922-ci ilə aid təsvirdə kişilərin bir-birinin ardıyca hərəkətsiz fiqurlarını verən rəssam onların dünya ilə heç zaman ayaqlaşmayacağından xəbər verir. Təsvirə baxdıqda rəssamın obrazların halına acıması hiss olunur. İllüstrasiyadakı məkan isə sanki kazarmanı xatırladır. Rəssam illustrasiyada kaloritlə ifadəliliyə nail olmuşdur.

M.Ə.Sabir "Qurban bayramı" ("Bayram olcaq şövkətlilər, şanlılar") şeirində bədii təzadlardan uğurla istifadə edərək xalq həyatından olan bir səhnəni canlandırmışdır. Şeirdə Qurban bayramının eyni məkanda lakin müxtəlif reaksiyalara səbəb olduğunu görürük. Əzim Əzimzadə isə öz fırçası ilə bu səhnəni məişət hadisəsindən uzaqlaşdırmış, ona dərin məna yükləməyə nail olmuşdur. Əzim Əzimzadənin bu şeirə olan münasibəti lakonik və aydındır. Belə ki, təsvirin sağ hissəsində qurban kəsən imkanlı kişi və onun arvadı, sol tərəfində isə divar dibində onlara baxan 4 nəfərlik kasıb ailənin təsviri öz əksini tapmışdır. Əsərə tamaşa etdikdə bizdə elə təəssürat yaranır ki, bu kasıb ailə öz bayram paylarını ümidlə, səbrsizliklə gözləyirlər. Bu da tamaşaçıda mərhəmət hissi yaradır. Rəssam 1922-ci ilə aid olan bu təsvirdə silüetlərin ifadəliliyinə uğurlu şəkildə nail olmuşdur. Əzim Əzimzadə 1931-ci ildə yenidən bu mövzuya müraciət etmişdir və bu dəfə çoxfiqurlu kompozisiya yaradaraq bayram ovqatını tamaşaçıya ötürə bilmişdir. Əzim Əzimzadə "Hophopnamə"nin orijinal təsvirlərini akvarel ilə işləmişdir. Lakin sonradan onlar mətbəədə litoqrafiya üsulu ilə çap olunmuşdur. Məhz bu proses 1914-cü ildəki "Hophopnamə"nin çapında uğurla yerinə yetirildiyindən təsvirlərinin keyfiyyəti də çox fərqlənir. Lakin 1922-ci il "Hophopnamə"nin nüsxəsində isə illüstrasiyalarının sayının çox olmasına baxmayaraq, onların keyfiyyəti qənaətbəxş deyil. "Hophopnamə"nin 1922-ci il nüsxəsinə aid olan təsvirləri öz düşündürücülüyü və inandırıcılığı ilə seçilir. Bu təsvirlərin sayı təqribən 60-a yaxındır. Yuxarıda qeyd etdiyim təsvirlərlə yanaşı, "Aycan! Aycan!", "Cavablar cavabı", "Bakı pəhləvanlarına", "Olmur, olmasın", "Qaç, at basdı", "Adətimiz daş idi dəva günü", "Bəxtəvər", "Zahidlərə", "Bura say", "Bir dəstə gül", "Müxabirə", "Mən şahi-qəvişövkətəm, İran özümündür!", "Cəhd eylə, sən ancaq nəzəri-xəlqdə pak ol", "Balaca səhnə", "Avropada Məmdəlinin eşqbazlığı" şeirlərinə çəkilmiş illustrasiyalar da Əzim Əzimzadə fırçasının gözəl nümunələrindəndir.

**Nəticə**

Belə ki, heç bir ixtisası olmayan Əzim Əzimzadə Sabir poeziyasına müraciət etməklə bənzərsiz ustad olduğunu sübut etmişdir. Bütövlükdə deyə bilərik ki, Əzim Əzimzadənin "Hophopnamə"ni bəzəyən təsvirləri milli təsviri sənətimizdə bənzərsiz iz qoymuş və Azərbaycan kitab qrafikası sənətinə əvəzsiz töhfə vermişdir. M.Ə.Sabir yaradıcılığı boyunca dini xalqı aldatmaq üçün əsas vasitə hesab edirdi. Şairin demək olar ki, şeirlərinin bir çox qismində bunu görmək olar. Görkəmli satirikin dünyanın düzələcəyinə ümidi az olsa da, şair sona qədər tükənməyən mübarizəsini davam etdirmişdir. Şairin navatorluğu onda idi ki, o poeziyamiza sadəlilik gətirmişdi. Bütün ömrü boyunca saysız - hesabsız təzyiq və təqiblərə məruz qalan şair heç zaman ümidsizliyə qapılmamışdır. Əzim Əzimzadə də şairin bu düşüncələrinə bədii görüntü vermişdir. Əzim Əzimzadənin M.Ə.Sabir yaradıcılığına ünvanladığı əsərlər Azərbaycanın tarixinə, adət ənənələrinə, zəngin etnoqrafiyasına, maddi mədəniyyət nümunələrinə əsaslanır. Bu əsaslarla Əzim Əzimzadə fırçasından çıxmış əsərlər reallığı ilə cəlbedici, sərtliyi ilə ittihamedici və düşündürücüdür. "Molla Nəsrəddin" kimi böyük bir məktəblə bağlı olan Əzim Əzimzadə heç bir təhsili olmasına baxmayaraq, bütün əsərlərini Allah vergisi ilə yaratmışdır. Rəssam "Hophopnamə"dəki hadisələri də böyük həvəslə bədiiləşdirmişdir. Əzim Əzimzadənin yaratmış olduğu obrazlar koloritli və yaddaqalandır, eyni zamanda müxtəlif təbəqəli oxucular üçün də başa düşüləndir. Rəssamın yaratdığı təsvirlər özündə reallığı əks etdirərək, şairin yaşadığı cəmiyyətin güzgüsü kimi çıxış edir. "Hophopnamə"də məzmunla təsvirin vəhdəti Azərbaycan kitab qrafikası sənətinə dəyərli töhfələr vermiş və müxtəlif rəssamların Sabir poeziyasına özünəməxsus münasibət göstərməsinə səbəb olmuşdur. M.Ə.Sabir yaradıcılığı hiss olunan dərəcədə çox cəhətlidir. Bunu "Hophopnamə"də olan şeirlərdə müşahidə etmək mümkündür. Burada istismarçıya nifrət, istismar edənə rəğbət müşahidə olunur. Əzim Əzimzadənin M.Ə.Sabir yaradıcılığına toxunmasının əsas səbəblərindən biri

də Sabir şeirlərinin əsasını təşkil edən mübaliğə, kinayə, eyham və təzaddır. Sabirin poezisiyası kəskin və sərt olmasına baxmayaraq, insan tərbiyəsinə təsir edən humanizmə malikdir. Müxtəlif bədii forma və üslublardan istifadə etməklə şair daima xalqını qəflət yuxusundan ayıltmağa çalışırdı.

**References**

1. Ziyadkhan Aliyev "Sabir in fine arts" Baku 2012
2. Mirza Alakbar Sabir "Hophopname" I Baku 2004
3. Mirza Alakbar Sabir "Hophopname" II Baku 2004
4. https://medeniyyet.az/page/news/34921/Mirze-Elekber-Sabir-yaradiciligi-tesviri-senetde.html?lang=ru
5. http://sabirmuseum.az/ev-muzeyinin-samaxi-eksponatlari/
6. http://sabirmuseum.az/sabir-incesenetde/

**Rəyçi: dos. G.Nərimanova**

Göndərilib: 07.05.2021 Qəbul edilib: 11.05.2021